## *Mövzu 6*. İNSAN HÜQUQLARININ QENDER TƏDQİQATLARI

*1.«İnsan hüquqları» anlayışının mahiyyəti. İnsan hüquqlarının tipologiyası*
*2.Beynəlxalq təşkilatların sənədlərində insan hüquqlarının qender aspekti*
*3.Dünyanın ayrı-ayrı ölkələrində qadın hüquqlarının həyata keçirilməsi*
*4.Azərbaycanda insan hüquqlarının qender tədqiqatları*

### 1. «İnsan hüquqları» anlayışının mahiyyəti. İnsan hüquqlarının tipologiyası.

Qadın bərabərliyi uğrunda mübarizə çoxdan aparılırdı və aparılır. Bəzi nəticələr əldə olunmuşdur və şübhəsiz ki, gələcəkdə qadınlar öz hüquqlarında kişilərlə tam bərabər olacaqlar. Çünki bəşər tarixinin inkişafı göstərir ki, bəşəriyyət yalnız qadının alçaldılmadığı və kişilərlə bərabər həyat quruluşunda xalqın idarə olunmasında yaxından iştirak etdiyi yerlərdə və vaxtlarda parlaq dövrlər və yüksək sivilizasiyalar yaratmışdır.

Bu, yaxud başqa şəkildə ifadə olunan insan hüquqları problemi bəşəriyyətin tarixi boyu davam etmişdir. İnsan hüquqları insanın və onun yaşadığı birliyin qarşılıqlı münasibəti məsələsinin şərhi və praktiki həlli üsullarından biridir. Bu fərdə insanlar və dövlət arasında öz bildiyi kimi hərəkət etmək (hüququn bu hissəsini adətən azadlıq adlandırırlar) yaxud müəyyən fayda götürmək (bu hüququn özüdür) imkanı verən qarşılıqlı əlaqə prinsipləri, normalarıdır. İnsan hüquqları bu əlaqələrdə şəxsiyyətin azadlığını və ləyaqətini, onun ən yüksək dəyər statusunu təsdiq edir.

İnsanın müasir hüquq konsepsiyasında üç əsas blok seçilir. *Birinci blok* hüquqlara fikir, vicdan, dini etiqad azadlığı hüququ, yaşayış və şəxsiyyətin təhlükəsizliyi hüququ, ədalət, bərabərlik və insan ləyaqətinə hörmət hüququ aiddir. Maarifçilik dövründə təşəkkül tapmış ənənəyə görə bu hüquqları insanın təbii, ayrılmaz hüquqları adlandırırlar ki, insana dövlətin şəxsi həyata qarışmamasına, mənəvi və maddi fəaliyyətinə zəmanət verir.

*İkinci blok* hüquqlara əmək, müstəqil iş yeri seçimi, sosial təminat, təhsil, sağlamlıq hüququ və s. daxildir. Bu hüquqları insanın əsas hüquqları adlandırırlar. Onların həyata keçirilməsi «dövlət – cəmiyyət – vətəndaş» sistemində qarşılıqlı təsirin xarakterini normativ şəkildə təyin etmək və fərdin müdafiəsi üzrə xüsusi proqram, təminat sistemləri və mexanizmləri yaratmaq üçün dövlət tərəfindən müəyyən müdaxiləni nəzərdə tutur.

*Üçüncü bloka* kollektiv adlanan hüquqlar – sülh hüququ, milli müqəddəratı təyin etmək hüququ, sağlam ətraf mühit, cinsi mənsubiyyətə, yaşa və milli əlamətə görə ayrı-seçkilikdən azadlıq hüququ aiddir. Bu hüquqlar fərdən daha çox öz hüquqlarının müdafiə olunmasına əlavə ehtiyac duyan müəyyən sosial qruplara ünvanlanmışdır. Hüquqşünasların əksəriyyəti qadın hüquqlarını da üçüncü qrupa aid edir.

İnsan hüquqlarının müasir tipologiyası olduqca rəngarəngdir. Onların ən ümumi təsnifatı bütün hüquqların neqativ (azadlıqlar) və pozitivlərə bölünməsidir. *Neqativ* mənada azadlıq şəxsiyyətə münasibətdə məcburiyyətin, məhdudiyyətin olmaması, öz istədiyi kimi hərəkət etmək imkanının olması; *pozitiv* mənada isə – seçim azadlığı, ən başlıcası isə insanın qoyulmuş məqsədə nail olmaq, bütövlükdə fərdi inkişaf qabiliyyətini aşkar etmək bacarığıdır. Neqativ hüquqlardan fərqli olaraq pozitiv hüquqlar dövlətin, şəxsin və təşkilatın vətəndaşı müəyyən hərəkətlər həyata keçirmək üçün bu, yaxud başqa nemətlə təmin etmək vəzifəsini qeydə alır. Bütün sosial hüquqlar pozitiv hüquq xarakteri daşıyır.

İnsan hüquqlarının ən geniş yayılmış təsnifatı onların mülki (şəxsi), siyasi, iqtisadi, sosial (sözün dar mənasında), mədəni və ekoloji hüquqlara bölünməsidir.

*Mülki (şəxsi)* hüquqlar – əsasən neqativ hüquq xarakteri daşıyan təbii, əsas və ayrılmaz insan hüquqlarıdır. Mülki hüquqlara hər şeydən əvvəl yaşamaq hüququ, azadlıq və şəxsi toxunulmazlıq, təmiz ad və qürurun müdafiəsi, yaşamaq üçün yer seçimi və hərəkət etmək hüquqlarıdır.

*Siyasi* hüquqlar vətəndaşların dövlətin idarə olunmasında və ictimai həyatda fəal iştirakı imkanlarını müəyyən edir. Onlara əsasən insanın vətəndaşlıq hüququ, seçki hüququ, ittifaq və assosiasiya, nümayiş və iclas azadlığı, söz, fikir azadlığı, eyni zamanda mətbuat və vicdan azadlığı aiddir.

*İqtisadi* azadlıqlar bilavasitə mülki və siyasi hüquqlara yaxındır. Onlar fərdin istehlak predmetlərindən və təsərrüfat fəaliyyətinin əsas amillərindən özü istədiyi kimi istifadə etməyin təminatı ilə bağlıdır.

Mülki, siyasi və iqtisadi hüquqları çox vaxt liberal hüquq yaxud birinci nəsil hüququ adlandırırlar. Onlar hamısı əsasən şəxsiyyətin və yalnız dövlətin müdafiəsinə ehtiyacı olan digər şəxslərin azadlığını məhdudlaşdıran neqativ hüquq xarakteri daşıyır.

İkinci nəsil hüquqlara *sosial, mədəni və ekoloji* hüquqlar aiddir. Onlar birlikdə dövlətin hər bir insana layiqli yaşayış şəraiti, minimum maddi nemətlər və xidmət, həmçinin sağlam ətraf mühit təmin etməsini müəyyən edir.

Bütün adları çəkilən hüquqlar cəmlənmiş şəkildə BMT Baş Assambleyasının 10 dekabr 1948-ci ildə qəbul etdiyi Ümumi insan hüquqları Deklarasiyasında sadalanmışdır. Deklarasiyanı BMT-nin onu hüquqi qüvvəyə mindirən daha dörd sənədi tamamlayır: İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq pakt; Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq pakt; sonuncu ilə bağlı iki Fakultativ protokol. Bunlar birlikdə insan hüquqları haqda Beynəlxalq bill adı daşıyan sənədi təşkil edir.

## 2. Beynəlxalq təşkilatların sənədlərində insan hüquqlarının qender aspekti

Qadın hüquqlarının xüsusi bir kateqoriyada toplanması müxtəlif tarixi və sosial amillərin təsiri ilə baş vermişdir. Bir çox əsrlər boyu hüquqlar sosial cəhətdən məhdudlaşdırılmışdı. Hüquq tarixini həmin şəxslər kateqoriyasının tədricən qanunun təsiri altına salınması kimi nəzərdən keçirmək olar.

Qadın hərəkatının təzyiqi altında beynəlxalq birlik nəhayət boynuna aldı ki, qadınların hüququ insan hüquqlarının ayrılmaz tərkib hissəsidir.

Əgər hansısa bir ölkədə qender bərabərliyi üzrə milli qanunvericilik zəif hazırlanmışsa, yaxud ümumiyyətlə hazırlanmamışsa, qadın təşkilatları, eləcə də qadınların özü hüquqlarını qorumaq üçün dünya birliyinin qəbul etmiş olduğu və onların parlamenti tərəfindən ratifikasiya edilmiş sənədlərdən istifadə edə bilər.

Ümumi hüquq Deklarasiyasında deyilir: «Bütün insanlar öz ləyaqəti və hüquqlarında azad və bərabər doğulur» və bununla kişi və qadın bərabərliyini bəşəriyyətin inkişafı, tərəqqi və sabitliyin təminatı amillərindən biri kimi qəbul edir. Bundan sonra BMT qender bərabərliyinin təmin olunmasına yönəlmiş 100-dən artıq sənəd qəbul etmişdir. Onların sırasında İnsan alış-satışı ilə, üçüncü şəxslər tərəfindən fahişəliyin istismarı ilə mübarizə haqqında (1949), Qadınların siyasi hüquqları barədə (1952), Ərli qadının vətəndaşlığı barədə (1957), Təhsil sahəsində ayrı-seçkilik barədə (1960) Konvensiyalar; İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq paktlar (1966) və digər sənədlər vardır.

Bu cərgədəki ən vacib beynəlxalq sənədlərdən biri BMT tərəfindən 1979-cu ildə qəbul olunmuş Ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiyadır ki, burada ilk dəfə olaraq qadın hüquqlarının insan hüquqlarının ayrılmaz hissəsi olduğu barədə məsələ qoyulmuşdu.

Konvensiyanın mövcud qanunların, adətlərin və təcrübənin dəyişməsi üzrə iki praktiki tövsiyyəsi xüsusi olaraq seçilir. Birinci tövsiyyədə məşğulluq sahəsində, o cümlədən işə götürərkən, eyni dəyəri olan iş əvəzində bərabər məvacibin təmin olunmasından, həmçinin «hamiləliyə görə işdən çıxarılma yaxud ailə vəziyyətinə görə işdən çıxarılma ilə bağlı ayrı-seçkiliyin» qadağan olunmasının vacibliyindən danışılır. İkinci tövsiyyə qadınların siyasətdə daha fəal irəliləməsi üçün xüsusi kvotalara dair mübahisəyə aiddir.

Qadınlara münasibətdə Ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiya indiyə qədər qender bərabərliyi sahəsindəki ən bitkin beynəlxalq akt olaraq qalır.

Qender bərabərliyi sahəsindəki çox vacib beynəlxalq sənədlərin sırasına həm də 1993-cü ildə insan hüquqlarına dair Ümumdünya konfransında qəbul edilmiş Vena Deklarasiyasını və tədbirlər Proqramını aid etmək lazımdır. Bu sənədlərdə də qadın hüquqlarının insan hüquqlarının ayrılmaz tərkib hissəsi olduğu nəzərə çatdırılır.

1995-ci ilin sentyabrında Pekində qadınların vəziyyətinə dair Dördüncü Ümumdünya konfransı keçirildi. Pekin görüşündən əvvəl Avstriyada, İndoneziyada, İordaniyada və Seneqalda çağırılmış beş regional hazırlıq iclası keçirilmişdi. Burada paritet demokratiya konsepsiyasına xüsusi diqqət yetirilmişdi. O, Avropa Şurasının tərkibində fəaliyyət göstərən kişi və qadınlar arasında bərabərliyə dair Komitə və insan hüquqları Departamenti tərəfindən işlənib hazırlanmışdı. Konsepsiya o illərdə Qərbi Avropa ölkələrinin qadın təşkilatları tərəfindən geniş müzakirə edilən ideyaları özündə cəmləşdirmişdi. Bu təşkilatlar öz hökumətlərindən və Avropa Şurasının rəhbər orqanlarından hakimiyyət strukturlarında qadınların real bərabərliyini təmin etmək üçün konkret tədbirlər görülməsini tələb edirdi. O dövrün əsas şüarı «paritet», kişi və qadınların hakim strukturlarda 50/50 formulu üzrə təmsil olunması idi. Onlar sübut edirdi ki, demokratiya «qadınların kişilərlə yanaşı cəmiyyətin fəaliyyətinin bütün sahələrində və səviyyələrində bərabər iştirakını» nəzərdə tutur. Hər bir cinsin idarəetmə orqanında iştirakı yalnız paritet əsasla həyata keçirilməlidir».

Pekin konfransı milli hökumətlərə qadınların kişilərlə bərabər partnyor kimi texniki, idarəetmə və sahibkarlıq fəaliyyət sahələrindəki imkanlarını genişləndirə bilən xüsusi strategiya və proqramlar hazırlamağı tövsiyyə etdi. Əsas tövsiyyə isə qadının qərar qəbul olunması prosesində iştirakı məsələsi ilə bağlı idi. Qərarların qəbulu prosesinin bütün səviyyələrində qadınların iştirakı olmadan və qadının marağı nəzərə alınmadan bərabərliyə, inkişafa və sülhə nail olmaq mümkün deyildir.

Bir çox ölkələrin hökumətləri artıq Pekin Platformasının əsas müddəalarını xüsusi qanunvericilik aktları və praktiki tədbirlərin köməkliyi ilə həyata keçirməyə çalışır ki, öz ölkələrində kişi və qadının sosial mövqeyində tarazlığa nail olsun. İstambulda keçirilən (1997) kişi və qadınlar arasında bərabərlik problemi üzrə IV Nazirlikliklərarası Avropa konfransının qəbul etdiyi sənədlər bu sahədə atılan böyük addım oldu. Konfransın Deklarasiyasında deyilir ki, «demokratik plüralizm, hüquqi dövlət və insan hüquqlarına hörmət prinsipləri Avropa Şurasının əsas prinsipləridir və əməkdaşlıq üçün zəmin rolunu oynayır».

Qender bərabərliyi üzrə qanunların və dövlət proqramlarının hazırlanmasında 1998-ci ildə kişi və qadınlar arasında bərabərlik problemi üzrə şöbə tərəfindən işlənən Avropa Şurasının yeni sənədi olduqca vacibdir. O, «Kişi və qadınların bərabərliyi probleminə kompleks yanaşma» (ingilis variantı “Gender Mainstreaming”) adlanır. Burada qeyd olunur ki, müəyyən mənada meynstriminq qender bərabərliyinin yeni nailiyyət strategiyasıdır. Bu strategiya «kişi və qadın arasında bərabərliklə bağlı aspektlərin siyasi fəaliyyətin bütün səviyyələrinə daxil edilməsini» nəzərdə tutur. Kompleks yanaşmanın əsas vəzifəsi sənəddə «insanların siaysətin formalaşma prosesinin ən mərkəzində yerləşdirilməsi» kimi müəyyən olunur.

2000-ci ilin iyununda BMT Baş Assambleyasının «Qadınlar 2000-ci ildə: kişi və qadınlar arasında bərabərlik, inkişaf və sülh XXI əsrdə» adlı xüsusi sessiyası keçirildi. Bu iri beynəlxalq tədbir Pekin hərəkət Platformasının qəbul edilməsindən ötən beş il ərzində tərəqqinin xülasəsi və qiymətinə, qadınların vəziyyətində baş vermiş dəyişikliklərin təhlilinə, həmçinin sonrakı tədbirlər və təşəbbüslərin nəzərdən keçirilməsinə həsr olunmuşdu. Sessiyada qeyd olundu ki, hal-hazırda qadınlarla bağlı olan 12 ən vacib problemli sahələrdə – yoxsulluq, təhsil və ixtisas hazırlığı, səhiyyə, silahlı münaqişələr, iqtisadiyyat, direktiv orqanların işində və qərarın qəbul olunma

prosesində iştirak, institusional mexanizmlər, kütləvi informasiya vasitələri, ətraf mühit və qızlar – tədbirlər həyata keçirməkdə davam etmək gərəkdir.

### 3. Dünyanın ayrı-ayrı ölkələrində qadın hüquqlarının həyata keçirilməsi

Yuxarıda adları çəkilən və digər beynəlxalq sənədlərdə möhkəmlənmiş prinsiplərin reallaşması qadın bərabərliyinin nəinki konstitusiya təminatı olan, hətta onun əlinə həmin təminata – konstitusiya qanunları bir qayda olaraq qanun aktları ilə möhkəmlənir – nəzarət etməyin tapşırıldığı Qərb ölkələrində daha sürətlə və müvəffəqiyyətlə həyata keçirilir. Bu ölkələrdə qadınlar hətta kişilərin sanki adına yazılmış iri biznes, maliyyə aləmi kimi sahələrin ən yüksək kürsüsünə malik ola bilirlər.

Demək olar ki, sənaye cəhətdən inkişaf etmiş Qərb ölkələrinin əksəriyyətində qadınların siyasi hüquqları təkcə rəsmən elan olunmur; qadının onları həyata keçirmək imkanları da vardır; ancaq burada da real siyasi bərabərlik barədə danışmaq hələ tezdir. Az inkişaf etmiş ölkələrdə, Şərq ölkələrində (sosial-iqtisadi inkişafın yüksək səviyyəsi ilə seçilənlərdə belə) qadınların siyasi hüquq qazanması və ondan istifadə etməsi prosesi olduqca çətin və ləng gedir.

Hazırda siyasi hüquqlar dünya birliyinin əksər ölkələrinin əsas qanununda elan olunmuşdur, lakin indiyə kimi ölkələrin çoxunda real bərabərliyə çoxsayda sosial-iqtisadi, mədəni, siyasi maneələr üzündən nail olmaq mümkün deyil. Bir çox kasıb ölkələrdə (xüsusən, Afrikada, Latın Amerikasında) bunsuz qadının öz hüquqlarını lazımınca reallaşdıra bilməyəcəyi təhsil problemi aktual olaraq qalır. Bir çox cəmiyyətlərdə qadınlar öz siyasi hüquqlarına lazımi diqqət yetirmir və ailədə zorakılıqdan müdafiə problemini, aclıqla, yoxsulluqla mübarizə problemini daha aktual sayaraq, bu problemlərin heç olmasa bir hissəsini öz siyasi hüquqlarının həyata keçirilməsi hesabına həll etmək imkanının olmasını nəzərə almır.

Kommunikasiyanın müasir inkişaf mərhələsində qadınların (eləcə də kişilərin) öz siyasi hüquqlarını dərk etməsi və reallaşdırmasında kütləvi informasiya vasitələri böyük rol oynayır. Əvvəlki əsrlərdə kommunikasiyanın, rabitə vasitələrinin zəif inkişaf səviyyəsi qadının sosial, siyasi və iqtisadi cəhətdən sıxışdırılmasının əsaslarından biri idi, çünki yalnız son vaxtlarda ictimai fikir güclü əhəmiyyət kəsb etmişdir. Qadınlar ictimai fikrin yaranmasında getdikcə daha fəal rol oynayır və ictimai fikrin tərəqqisi, bərabərlik, insan hüquqları, humanizm ideyalarının yayılması onların cəmiyyətdə sosial mövqeyinin yaxşılaşmasına müsbət təsir göstərir. Bu cür tərəqqiyə isə yalnız kütləvi informasiya vasitələrinin inkişafı, onların demokratik təşkili və fikir plüralizminin inkişafı ilə nail olmaq mümkündür.

### 4. Azərbaycanda insan hüquqlarının qender tədqiqatları

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsi bütün Azərbaycan vətəndaşlarının cinsindən, dinindən, milliyyətindən asılı olmayaraq bərabərliyini elan edir. Qanuna uyğun qaydada Azərbaycan qadınlarının öz siyasi hüquqlarının reallaşması üçün heç bir maneə mövcud deyil. Halbuki Azərbaycan qadınlarının deklarativ qanunları öz siyasi və digər hüquqlarını həyata keçirə bilməsi üçün bir sıra problemlər mövcuddur.

Azərbaycan qadınlarının öz siyasi hüquqlarının həyata keçirilməsinidə əsas problem siyasi mədəniyyətin aşağı səviyyədə olması, siyasi ictimailəşdirmənin aşağı səviyyəsi, siyasi fəaliyyətə laqeyd, neqativ münasibət – problemlərin hamısı haqqında bütün kurs ərzində dəfələrlə qeyd edilmişdi. Hal-hazırda Azərbaycanda insan hüquqlarının qender tədqiqatları inkişafın elə bir mərhələsinə keçir ki, Qərbdə bu mərhələyə hələ XX əsrin 70-ci illərində keçilmişdi. Azərbaycan qender tədqiqatların əsas mövzusu sosial siyasətin tənqidi, qadınların əmək və məşğuliyyət problemi, siyasət və hakimiyyət strukturlarında qadınlar və başqaları.

Tarixi inkişafın müxtəlif mərhələlərində Azərbaycan qadınları ölkənin ictimai-siyasi həyatının bütün sahələrində fəal iştirak etmişlər. Hələ, «Dədə Qorqud» dastanında deyilir ki, qadınlar həlledici məqamlarda kişilərlə bərabər öz ağıl, mərdlik və məsuliyyət hissini nümayış etdirirdilər. Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində və inkişafında öz hüquq və azadlıqları uğrunda mübarizədə mühüm rol oynayan məşur zəhmətkeş qadınların, dövlət xadimlərinin, şairlərin, qadın sərkərdələrinin adları məlumdur (Məhsəti Gəncəvi, Xurşudbanu Natəvan, Həcər, Sara Xatun, Pərixan, Xənifə Abayeva-Melikova, Ayna Müsabəyova-Sultanova, Ceyran Bayramova, Şamama Həsənova, Gültəkin Əsgərova və b.)

Öz hüquqları uğrunda mübarizədə və mürəkkəb yaşayış şəraitində Azərbaycan qadınları öz bacarıqlarını sübut edə və cəmiyyətdə layiqli yer tuta bildilər. Qadın fəaliyyətinin inkişafının başlanğıcı seçki hüququ uğrunda mübarizə və bu hüququ onlar 1919-cu ildə ADR-in hakimiyyəti dövründə əldə etdilər. Bu vaxtdan etibarən ilk qadın qruplar, klublar, gimnaziyalar yaranmağa başladı, jurnallar nəşr edildi. İctimai-siyasi həyatın müxtəlif sahələrində qadınların təmsil olunması, işlə əlaqədar qadın şöbələri arasında xüsusi təşkilatların yaranmasına gətirib çıxartdı. Sovet dövründə qadınlar hakim təbəqəni təşkil etməsələr, buna baxmayaraq onlar müxtəlif strukturlarda yüksək vəzifələr tutur, öz hüquq və imkanlarını layiqincə həyata keçirirdilər.

90-cı illərdə respublikada baş vermiş dəyişikliklər ictimai-siyasi problemlərin həlli üçün yeni keyfiyyətli yanaşmalar tələb etməyə başladı. Böyük iqtisadi potensiala və zəngin təbii resurslara malik olmasına baxmayaraq Azərbaycan sosial bərabərliyin və hüquq pozuntularının güclənməsinin şahidi oldu, əhalinin əksər hissəsi, xüsusilə qadınlar, işsizlik təhlükəsinin yaranması ilə qarşılaşdı. Elə bir dövr gəlib çatdı ki, onlar əlverişli əmək fəaliyyətindən uzaqlaşdırılmağa başladılar, məşqulliyət, təhsil, səhiyyə, elmi və siyasi sahələrdə problemlər meydana çıxdı.

IV Pekin konfransından sonra (1995-ci il) qadınlara münasibətdə dövlətin siyasəti güclənir və onlar kişilərlə bərabər rəhbər vəzifələrə seçilirlər. Ölkədə qadınların maraqlarına etnik tərkiblərinə, peşələrinə və qadın hüquqları müdafiəsinə uyğun olaraq fəal sürətdə qadın qeyri-hökümət təşkilatları yaranmağa başlayır. Əgər 1994-cü ildə yalnız beş qeyri-hökümət təşkilatı və qeyri-rəsmi assosiasiya qeydiyyatdan keçmişdirsə, 2000-ci ildə onların sayı qırxa yaxın idi.

Ölkədə qadınların siyasi və idarəçilik fəaliyyəti ilə bağlı aparılan xüsusi tədqiqatlar göstərir ki, inzibati idarəetmə sahəsində çalışan qadınlar 31%, rəhbər nazirliklər, komitələr və idarələr təqribən 7%, icraedici hakimiyyət rəhbərləri 10%-ə yaxın, məhkəmə sistemində isə təqribən 15% qadın çalışır.

Respublika Ədliyyə Nazirliyində qeydiyyatdan keçən 37 siyasi partiyadan yalnız birinin rəhbəri qadındır. Bu hər şeydən əvvəl kişidən fərqli olaraq qadın-liderə daha böyük tələbat olması ilə əlaqədardır. Qadın problemləri çox vaxt siyasi platforma və proqramlarda öz əksini tapmır.

Əvvəlki dövrdən fərqli olaraq parlamentdə deputat-qadınların sayı 1985-ci ildəki 39%-dən 2000-ci ildə 10,4%-dək məhdudlaşıb. 1999-cu ildə ölkədə ilk dəfə olaraq bələdiyyə seçkiləri keçirildi ki, bu da yerli özünüidarəetmə səviyyəsində qadınların necə iştirak etdiyini göstərdi. 21 mindən daha çox deputatların arasında qadınlar 2 %-dan bir az artıq təşkil edir. Belə vəziyyətin yaranmasının səbəbi, birincisi, qadın hüquqlarının pozulması, ikincisi isə, qadınların siyasi və təsərrüfat – idarəetmə işlərində iştirak etməkdə özlərinin istəməməsi ilə əlaqədardır.

Bu isə o deməkdir ki, qadınların vəziyyətini yaxşılaşdırmaq və təkmilləşdirmək işi, onların bütün ictimai – siyasi sferada və idarəetmə fəaliyyətində kişilərlə bir səviyyədə bərabərhüquqlu iştirakı davam edir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATIN SİYAHISI


1. Azərbaycan Respublikasının Konstitusiyası. – B., 2001
2. Azərbaycanda qender tədqiqatları. – B., 2002
3. Əbdülvahabova S. Qadın hərəkatının zəruriliyi// Qenderşünaslıq, 2000, № 4
4. İnsan hüquqları haqqında beynəlxalq bill. – B., 1998
5. Всемирная конференция по правам человека. Венская Декларация и программа действий. Июнь 1993г. – Нью-Йорк, 1995
6. Декларация о равенстве между женщинами и мужчинами как главный критерий демократии. Стамбул, 13-14 ноября 1997 г. // Права женщин в России. Законодательство и практика. 1998, № 8,
7. Доклад Регионального подготовительного совещания по вопросу о проведении в 2000 г. обзора осуществления Пекинской Платформы действий 19-21 января 2000 г. Нью-Йорк, 2000
8. Гараджаев Дж. Обеспечение международных стандартов в сфере прав человека и гражданина в правовой системе Азербайджана и Возрождение XXIв., 2000, № 4
9. Гомьен Д., Харрис Д., Зваак Л. Европейская конвенция о правах человека и Европейская социальная хартия: право и практика. – М., 1998
10. Женщина в гражданском обществе. Материалы международной конференции 6-9 июня 2002г. – СПб., 2002
11. Куватова А.А., Хегай М.Н. Введение в гендерные исследования. - Душанбе, 2000
12. Общая и прикладная политология. Под ред. Жукова В.И. и Краснова Б.И. - М., 1997
13. Права человека: постоянная задача Совета Европы. – М., 1996
14. Пугачев В.П., Соловьев А.И. Введение в политологию. - М.,2002
15. Jennifer Robinson Gender Apartheid in Afghanistan// Suite1001. August 21, 2000
16. Women in the Civil Rights Movement. Trailblazers & Torchbearers (1941 – 1965). Edited by Vicki Crawford, Jacqueline Anne Rouse and Barbara Woods. Indiana University, 1993
17. www.amnesty.org
18. http://demo.interpro.ru/content/win/
19. www.owl.ru/win/books/gender/index.htm
20. http://isar-az.org/directory/gender.htm
21. http://www.gender.ru

## *QLOSSARİ*

| | | |
|---|---|---|
| 1. | Androkratiya | (yun. *ander*, yiyəlik halı *andros* – kişi, *krateia* – hakimiyyət) kişinin tam hakimiyyəti |
| 2. | Dimorfizm | (*di* və yun. *morphe* - forma) biologiya termini – bir növün fərdlərində bir-birindən morfo-fizioloji əlamətlərinə görə iki fərqlənən formanın mövcudluğu |
| 3. | Diskriminasiya | (lat. *diskriminatio* – fərq) – vətəndaşlarının hər hansı bir qrupunun milliyyətindən, irqindən, dini mənsubiyyətindən, cinsindən asılı olaraq hüquqlarının məhdudlaşdırılması |
| 4. | Dixotomiya | (yunanca *dichotomia* – ikiyə bölünmə) – təsnifat üsulu: siniflər, çoxluqlar, anlayışlar və b. bir-birindən asılı elementlər cütü halında bölünməsi |
| 5. | İdentifikasiya | (lat. *identifico* - eyniləşdirmə) – bir şəxsiyyətin başqa şəxslə, qrup ilə, psixologiya və sosiologiyada nümunə kimi emosional və özünü eyniləşdirmə prosesi |
| 6. | İmmanentlik | (lat. *immanens* – hər hansı bir şeyə mənsub olan nədəsə olmaq) – hər hansı bir əşyayanın, hadisənin, prosesin daxilən mənsubiyyəti |
| 7. | İnkorporasiya | (lat. *incorporatio* – öz tərkibinə daxil etmə) – sistem çərçivəsində bir vahid kimi daxil olunma, birləşdirmə prosesi. Ümumi rifah dövləti inkorporasiya etmənin əsas aləti kimi baxılır |
| 8. | Konvensionalizm | (lat. c*onventio* – müqavilə, saziş) elmi anlayışlar və nəzəri qurumları əsasən alimlər arasında sazişin məhsulu kimi qəbul edən fəlsəfi konsepsiya. |
| 9. | Konformizm | (latınja c*onformis* – uyğun, uzlaşan) – uyğunlaşma mövcud nizam-intizamı, hakim fikiri passivcəsinqə qəbul etmək, şəxsi mövqeyinin olmaması, daha çox təsir qüvvəsinə malik olan istənilən nümunəni prinsipsizcəsinə və qeyri-tənqidi təqlid etmək |
| 10. | Marginalizasiya | (ing. *marginal* – kənar, son həddə olan) ayrı-ayrı fərdlərin və ya qrupların əsas cəsmiyyətdən sıxışdırılıb çıxarılması və bəzən də qovulması ilə nəticələnən proses |
| 11. | Meritokratiya | (lat. və yun. – *meritocracy* – hakimiyyətə layiq) – xidməti vəzifə irsi faktorlardan deyil, xidmət və ləyaqətindən asılı olaraq mükafat şəklində ədalətlə bölüşdürülməsi |
| 12. | Reprezentativlik | (fran. *representatif* - nümunəvi) hər hansı bir qrupun tədqiqat nəticələrinin buna oxşar qruplarda tətbiq dərəcəsi (seçilmiş müşahidə) |
| 13. | Refleksiya | (lat. *reflexio* – geriyə müraciət) – öz hərəkətlərini və onların qanunauyğunluqlarının dərk olunması; düşüncə, özünümüşahidə, və özünüdərketmə. |
| 14. | Sakral | (ing. *sacred* - müqəddəs) – gündəlik həyat ilə bağlı olmayan, qadağa qoyulmuş və özəl (E.Dyurkqeym) |
| 15. | Seqreqasiya | (lat. *segregatio* – təcrid olunma) – əhalinin hər hansı bir qrupunun irqi və ya milli mənsubiyyətinə görə siyasi, sosial-iqtisadi və vətəndaş hüquqlarından məhrum olunması və yaxud nəzərə çarpacaq dərəcədə məhdudlaşdırılma |
| 16. | Seksizm | (lat. *sexus* – cins) – qadın və kişilərə qarşı sırf cinsi mənsubiyyətinə görə tətbiq olunan diskriminasiyaedici hərəkət və qaydalar |

| | | |
|---|---|---|
| 17. | Sporadik | (yun. *sporadikos* - nadir) – tək-tək hallarda baş verən, nadir |
| 18. | Suffrajizm | (ing. *suffrage* – seçki hüququ) – qadınlara seçki hüququ verilməsi uğrunda qadın hərəkatı |
| 19. | Transsendensiya | (lat. *transcendo* – həddini aşma) – «allah qarşısında bərabər» olan insanların sosial bərabərliyi, mənəvi özünütəkmilləşdirmə, insanı «qaba-materialistik» maraqlarından uzaqlaşdıran təbiətə yaxınlıq |
| 20. | Ekzistensializm | (lat. *exsistentia* – mövcud olma) – insanın varlığının obyekt və subyekti parçalanmamış bütövlük şəklində izah edən irrasional fəlsəfi cərəyan |
| 21. | Emansipasiya | (lat. *emansipatio* – azad olma) – asılılıqdan, tabeçilikdən, istismardan, mövhumatdan azad olma prosesi |